*Yerevanda nümayiş, 1988-ci il.*
*Mənbə: Ruben Manqasaryan / Patker*

# Dağlıq Qarabağ münaqişəsinin kökləri, dinamikası və yanlış təsəvvür


## Tomas de Vaal

Tomas de Val Londonda yerləşən Müharibə və Sülhün İşıqlandırılması İnstitutunun Qafqaz üzrə redaktorudur. Cənubi Qafqaz problemləri və Rusiya siyasəti üzrə çoxsaylı nəşrlərin və "Qara bağ: Ermənistan və Azərbaycan sülhlə savaş arasında" adlı kitabın müəllifidir.


Hər bir münaqişənin öz tarixçəsi var. Lakin çox nadir hallarda elə münaqişə olub ki, Dağlıq Qarabağ münaqişəsi kimi başlasın. Tərəflərin əsas mövqeləri - Qarabağ ermənilərinin Ermənistanın köməkliyi ilə Azərbaycandan ayrılma qətiyyəti və Azərbaycanın belə ayrılmanın qarşısını almaq əzmi - 1988-ci ilin fevralında formalaşmışdır. Məhz bu zaman hadisələr coşub nümayişlər, tətillər, siyasi çəkişmələr, qaçqın axınları və basqınlar müstəvisinə keçmişdir. Ermənistanla Azərbaycanın arasında tammiqyaslı hərbi əməliyyatların yalnız 1991-ci ilin sonunda başlaması niyyət məsələsindən daha çox silahların əldə edilməsi ilə bağlıdır.

1988-ci ilin gərgin və həyəcanlı fevral hadisələri millətçiliyin necə böyük siyasi gücə malik olmasını yaddan çıxarmış Avropanı sarsıtdı. Bu mənada kommunist ideologiyasının dağılması ərəfəsində millətçilik zəminində ilk ciddi münaqişə olan Qarabağ münaqişəsini ən gözlənilməz, və eyni zamanda ən gözlənilən münaqişə adlandırmaq olar. Yuqoslaviya və ya Sovet İttifaqındakı digər münaqişələrlə müqayisədə, bu münaqişə daha labüd idi, çünki onun kökləri kommunist sisteminin son illərində formalaşmış iki tərəfin qarşılıqlı münasibət strukturundan başlanırdı. Bu münasibətlərin bünövrəsində çatlar yaradan dörd məsələ - bir-birindən fərqli milli tarix versiyaları, mübahisəli sərhədlər, qeyri-möhkəm təhlükəsizlik sistemi və tərəflər arasında dialoqun olmaması - ilk çaxnaşmalar başlayarkən münasibətlərdə dərin uçuruma səbəb oldu. Lakin məhz problemin yeniliyi və dərinliyi onu həll edə bilən mexanizmi tapmaq indiyə kimi mümkün olmamışdır.

## Qarabağ: kimlik və sahiblik

Tarixin bir-birinə zidd olan versiyaları iki cəmiyyətin hər birində mütləq şəkildə qəbul edilmişdir. Hələ hərbi əməliyyatlar başlamazdan öncə hər iki tərəfdən olan ziyalılar cəbhədə baş verənləri müəyyənləşdirən prinsiplərin əsasında duran dəlilləri ifadə etmişlər. Hər iki tərəfin mövqeləri hələ 1960-cı illərdə, millətçiliyin bəzi təzahürləri üçün şərait yaradan Nikita Xruşşovun başladığı "mülayimləşmə" dövründə səmtləşmişdir. Lakin bunlara nəzarət etmək kifayət qədər çətin məsələyə çevrildi, xüsusilə də növbəti dövrlərdə Ziya Bünyadov və Zoriy Balayan kimi yazıçılar bir birinə tamamilə zidd olan tarix versiyaları üzərində işləməyə başlayandan sonra.



1988-ci ildə münaqişə başlayan zaman yaranan boşluğa hər iki tərəfdən "Qarabağ faciəsinin günahkarları yaxşı tanınır" kimi başlıqlar altında yazılar yazan təşviqatçı və pamfletçi orduları üz tutdu. Təəssüflər olsun ki, o vaxtdan bəri çox şey dəyişməyib. Bu gün ideoloji qarşıdurma daha sıx dairələrdə İnternetdə davam edir, bununla bərabər hər iki ölkədə keçirilmiş rəy sorğuları göstərir ki, respondentlərin böyük əksəriyyəti Qarabağın hər hansı sülh sazişi çərçivəsində "başqa" tərəfə verilməsini təsəvvürə belə gətirə bilmirlər. Hər iki tərəf əmindir ki, Dağlıq Qarabağsız öz milli kimlikləri tam olmayacaq, milli dövlətçilik isə soluxacaq. Bu inanc öz növbəsində digər tərəfdən və onu dəstəkləyənlərdən ümumi, həm həqiqi, həm də xəyali təhlükə hissini gücləndirir.

Bu qorxuları yalnız xülya adlandırmaq düzgün olmazdı, hər necə olsa Ermənistan və Azərbaycanın müasir tarixində ehtiyata əsas verən kifayət qədər müsibət və itkilərin real nümunələri var. Hər iki millətdə müharibə, təqiblər və böyük dövlətlərin arasında bağlanmış sazişlər nəticəsində vətəndən ayrı yaşayanların sayı daha çoxdur, nəinki ölkənin özündə. 1828-ci ilin Türkmənçay müqaviləsi iki Azərbaycan arasında sərhəd çəkmişdir, 1915-21-ci illərdə isə böyük dövlətlərin siyasəti Ermənistan ərazilərinin kiçilməsinə gətirib çıxardı. 1915-ci ildə ermənilərin Anadoluda kütləvi şəkildə qırılması regionun müasir tarixində digər zorakılıq hallarını miqyas baxımından xeyli arxada qoyur, bununla belə iyirminci əsrin əvvəllərində azərbaycanlılar da heç də az iztirablar çəkməmişlər - bir çox hallarda ermənilərin əlindən. Müasir millətçi tarix elminin diqqəti digər millətlərin (məs. rusların, gürcülərin) deyil, məhz ermənilərlə azərbaycanlıların bir-birinə əzab verdikləri məqamlar üzərində cəmləşir.

## Müasir dövrün Qarabağ münaqişəsi

Ermənistanla Azərbaycan arasında ilk ciddi çəkişmələr on doqquzuncu əsrin sonlarında baş vermişdir. Ermənilər və azərbaycanlılar Rus, Osmanlı və İran imperiyalarının kəsişməsində yerləşən və yüz kilometrlərlə uzanan bölgədə yanaşı yaşayan əsas xalqlar idi. Tarixən ermənilər daha yüksək sosial-iqtisadi pilləni tuturdular. Ermənilərin əksəriyyəti şəhərlərdə məskunlaşaraq

imkanlı tacirlər təbəqəsini formalaşdırırdı. On doqquzuncu əsrin sonlarında millətçiliyin baş qaldırması və Rus və Osmanlı imperiyaları arasında münaqişənin kəskinləşməsi ilə ermənilər Türkiyə Anadolusunda ən vuruşqan və eyni zamanda ən müdafiəsiz icmaya çevrildilər. Əgər bu hadisələrdən bir neçə nəsil öncə əksəriyyəti şiə olan azərbaycanlılarla əsasən sünni olan türkləri birləşdirən bir şey yox idisə, bu dövrdə onlar ümumi maraqlar zəminində bir-birinə yaxınlaşmağa başlamışlar və ermənilər tərəfindən eyni millət kimi qəbul edilirdilər. Bu iki xalqı ümumiləşdirən ermənilər azərbaycanlıları da 1915-ci ilin soyqırımında ittiham edirlər.

1917-1920-ci illərin erməni-azərbaycanlı hərbi qarşıdurmasını sərhəd çəkib işlək dövlət yaratmaq üçün atılmış xaotik cəhdlər kimi qəbul etmək olar. Şərqi Avropanın digər yerlərində və Balkanlarda da eyni qanlı proses baş verirdi. Bu müharibə əvvəlki əsrin Rusiya və Türkiyə arasında uzun müddətli münaqişənin davamı olan özgə əllərlə aparılan bir müharibə idi. Bu iki dövlətdən hər biri yerlərdə müvafiq olaraq ermənilər və azərbaycanlılardan öz müttəfiqi kimi istifadə edirdilər.

Qarabağın bədbəxtliyi də ondan ibarətdir ki, o, hər zaman ortada qalırdı. Coğrafi cəhətdən Qarabağ iki ölkəni ayıran dağ silsiləsinin Azərbaycan tərəfində yerləşir. Demoqrafik cəhətdən isə Qarabağ əhalisi əsrlərlə yan-yana yaşamış iki millətdən ibarət olan qarışıq əhali idi. Ermənilər dağlıq ərazilərdə çoxluq təşkil etsələr də, azərbaycanlılar əsasən Qarabağ düzənliklərində və Şuşa şəhərində (ermənilər arasında Şuşi kimi tanınır) yaşayırdılar. Mədəni cəhətdən də Qarabağ hər iki tərəf üçün böyük əhəmiyyətə malikdir. Ermənilər üçün Qarabağ onun ərazisində səpələnmiş onlarla erməni kilsəsinə, orta əsrlər məliklərinin yerli muxtariyyət ənənələrinə və Qarabağ ermənilərinin döyüşçü şöhrətinə görə dəyərlidir. Azərbaycanlılar üçün isə Qarabağ birinci növbədə mərkəzi 18-ci əsrin böyük şəhəri Şuşa olan xanlıqdır, Qarabağ Vaqifin, Natəvanın və Üzeyir Hacıbəyovun adları ilə bağlı olan Azərbaycanın musiqi və şairlik mədəniyyətinin yüksəlişi deməkdir. Bir sözlə, Qarabağ Elzas, Flandriya və Kəşmir kimi mədəni cəhətdən zəngin sərhəd bölgələrindən idi, və təəssüf ki, elə həmin bölgələr kimi də döyüş meydanı aqibətini yaşamalı oldu.

1920-21-ci illərdə bu münaqişənin yalnız iki həll yolu var idi: tərəflərdən birinin hərbi qələbəsi (Anadolu, Zəngəzur və Naxçıvanda baş verdiyi kimi), və yaxud imperiyaların biri tərəfindən yuxarıdan zorla qoyulmuş yeni dövlətçilik strukturu. Böyük Britaniyanın öz variantını tətbiq etmək cəhdi boşa çıxdıqdan sonra, imperiya hakimliyini bolsheviklər öz əllərinə aldı, elə bu zaman 1920-ci ilin mayında 11-ci Qızıl Ordu Qarabağı işğal etdi. 1920-ci il iyulun 5-də İosif Stalinin sədrlik etdiyi Qafqaz Bolsheviklər Komitəsi (Kavbüro) Qarabağın dağlıq hissəsini Azərbaycanın tərkibində təsdiqləyən qərar qəbul etdi. 1923-cü ilin iyulunda Azərbaycanın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) yaradıldı, bu yeni vilayətin sərhədləri çərçivəsində erməni əhalisi 94% təşkil edirdi.

Məsələnin bu tərzdə həll edilməsi DQMV-ni Sovet İttifaqında bir müttəfiq respublikanın tərkibində olan, lakin digər respublika ilə sıx əlaqələri olan iki muxtar vilayətdən birinə çevirdi (ikinci belə muxtar vilayət - rusdilli əhalinin çoxluq təşkil etdiyi Krım - vəziyyətin bütün ağırlığına baxmayaraq bu dərəcədə mübahisə obyekti olmadı). Belə çözümün ziddiyyətli tərəfləri heç vaxt müzakirə olunmurdu. Buna baxmayaraq tarixin iki bir-birindən tam fərqli milli təfsirləri mövcud idi: əksər ermənilər 1921-ci ilin qərarını elə də qəbul etmədilər və 1945, 1965 və 1977-ci illərdə təkrarən ona qarşı çıxış etmişlər. DQMV Sovetinin 20 fevral 1988-ci il tarixli sessiyasında Azərbaycan SSR-i tərkibindən çıxıb Ermənistan SSR-i tərkibinə keçmək haqqında mərkəzi hökumətə ərizə göndərmək qərarı qəbul edilmişdir. Bu səsvermə azərbaycanlılar üçün tamamilə gözlənilməz oldu: Dağlıq Qarabağın Azərbaycanın tərkibində olması onlar üçün sübut tələb etməyən fakt idi. Bu da Qarabağın azərbaycanlı irsini təbliğ edən gündəlik xəbərlər buraxılışları və geniş elmi ədəbiyyatda öz təsdiqini tapmışdır.

Burada bir vacib məqamı da qeyd etmək lazımdır ki, bölgənin siyasi "arxitekturası" ətrafında altdan aparılan bütün bu struktur çəkişmələrin bölgədə yaşayan əhalinin gündəlik həyatlarına heç bir təsiri yox idi. Əksər ermənilərin və azərbaycanlıların sözlərinə görə, onların arasındakı ticarət əlaqələri gürcülərlə olan əlaqələrindən tarixən daha sıx idi; qarışıq nigahların da sayı az deyildi. Sovet dövrünün qarabağlıları - həm ermənilər, həm də azərbaycanlılar - adətən hər iki dildə danışır, qonşuları ilə yaxşı münasibətlərdə olur və ümumilikdə Yerevan və Bakıdakı ziyalıların açdıqları millətçi ritorikaya az fikir verirdilər.

Məhz buna görə də Qarabağ münaqişəsini qədim düşmənçiliyin təzahürü və ya dinlərin münaqişəsi kimi müzakirə etmək düzgün deyil. Mədəni, işgüzar və ailə münasibətləri erməniləri və azərbaycanlıları əvvəlki kimi Qarabağ münaqişəsi bölgəsindən başqa hər yerdə - Moskvada, Gürcüstanda və ya İranda - bir-biri ilə bağlayır.

## Təhlükəsizlik dilemmaları

Bəs onda adi qonşuları bir-biri ilə münaqişəyə nə vadar etdi? Vəziyyətin sürətlə gərginləşməsi və etibarın itirilməsində Dağlıq Qarabağın quruluşunda mövcud olan siyasi ziddiyyətlərin üzərindən gəlməkdə acizlik göstərən olan sərt sovet sistemi günahkardır. Sovet İttifaqı kimi

mərkəzləşmiş dövlət təhlükəsizliyi yalnız qorxu üzərində təmin edə bilirdi, və buna görə də iki cəmiyyət arasında mübahisələrin konsensus yolu ilə həll edilməsi üçün onun heç bir mexanizmi yox idi. Sovet İttifaqında ərazi-inzibati bölgü milli əsaslarda aparılmışdır, bununla belə cəmiyyətdə üfüqi vətəndaş əlaqələrinin yaranması, yəni Kommunist partiyasına aid olmayan və milli mənsubiyyətə görə formalaşmayan təşkilatlar vasitəsi ilə cəmiyyətin ictimai və siyasi həyatında iştirak heç də azad deyildi. 1988-ci ilə kimi sosializm ideologiyası cəmiyyətin həyatında aparıcı prinsip kimi artıq qüvvədən düşmüşdü, beləliklə ən çətin anda ermənilər və azərbaycanlılar "xalqların qardaşlığı" və "fəhlə sinfinin həmrəyliyi" kimi mücərrəd ideyaların əvəzinə tamamilə məntiqi surətdə öz millətləri və vətənlərinə sadiqliklərini nümayiş etdirdilər. Məqbul kompromis ətrafında ikitərəfli danışıqların aparılması tərəflər üçün heç bir maraq kəsb etmirdi, hətta onlar istəsəydilər belə. Qarabağ erməniləri öz məqsədlərinin həllini Bakıda axtarmaq haqqında düşünmürdülər, Bakıdakı rəhbərlik də onları dəvət etmək fikrində deyildi: kompromis tərəfdarlarından biri, 1991-ci ildə Stepanakertdən Bakıya göndərilmiş nümayəndə heyətinin üzvü, Qarabağ ermənisi Valeri Qriqoryan Bakıdan qayıdarkən öldürülmüşdür. Bunun əvəzində hər iki tərəf öz nümayəndələrini Moskvaya göndərməkdə və Kremldakı partiya rəhbərlərinə zəng etməkdə davam edirdilər. Hər iki tərəf əmin idi ki, bu qarşıdurmada Moskva hakimlik edib tərəflərin birini qalib elan edəcək.

Beləliklə adi adamlar öz aralarında olan dostluq və qonşuluq əlaqələrini tədricən itirməyə başladılar. Siyasi qarşıdurma başlayan kimi Şuşa və Stepanakertin əhalisi, və xüsusilə də qarışıq nigahda olan ailələr, kimliklərini ya azərbaycanlı, ya da erməni kimi təyin etməli idilər. "Ayaqla səs" verib doğma el-obalarını tərk etməkdən başqa üçüncü variant yox idi. Maraqlıdır ki, ən güclü vətəndaş ənənələrinə malik olan Bakıdakı erməni-azərbaycanlı icması siyasi gərginliyə daha çox tab gətirdi və yalnız 1990-cı ilin yanvarında təslim oldu.

Bəzilərinin fikrincə, münasibətlərin birdən-birə gərginləşməsinin arxasında məhdud resurslar üstündə mübarizəni əks edən iqtisadi səbəb dururdu, lakin bu mövqe tənqidə davam gətirmir. Dağlıq Qarabağda çəkişmələr 1980-cı illərin sovet iqtisadi durğunluğundan bir neçə onilliklər öncə başlamışdır, muxtar vilayət özü də SSRİ-nin digər bölgələrindən heç də kasıb deyildi, orta iqtisadi göstəriciləri Azərbaycana bərabər, Ermənistandan isə azacıq kiçik idi. Qorbaçovun Qarabağ üçün "kiçik intibah" vədləri və Arkadi Volskinin 1988-1989-cu illərdə Moskvadan nail olduğu böyük sərmayə axını Qarabağ ermənilərini Azərbaycan SSR-i tərkibində qalmağa inandıra bilmədi.

## Mübahisədən zorakılığa

1988-ci ilin əvvəlində hadisələrin sürətlə inkişafı o zamankı vəziyyətin həddindən artıq qeyri-sabit olduğuna işarə edir. Öncə Ermənistanın cənubundan dözülməz incitmələrə şikayətlənən böyük sayda azərbaycanlı qaçqınlar Azərbaycana üz tutdu (bir neçə ay bundan əvvəl azərbaycanlılardan ibarət nisbətən kiçik qruplar artıq Ermənistanı tərk etmişdi). Sonra DQMV Soveti görünməmiş bir səsverməyə əl atdı. Bunun ardınca Stepanakert və Bakıda mitinqlər və Sovet İttifaqında müharibədən sonra ən iri miqyaslı nümayiş olan Yerevan nümayişi keçirildi. Eyni zamanda Dağlıq Qarabağda SSRİ-nin müharibədən sonrakı tarixində fəhlələrin ən kütləvi tətili başladı.

Qarşıdurma siyasətinin açıq münaqişəyə keçməsinə təkan verən ən sonuncu hadisə 28-29 fevral 1988-ci il Sumqayıt qırğını oldu. Sumqayıt hadisələri sosial partlayışa gətirə bilən bir sıra komponentin qarışığından nəticələndi: iqtisadi inkişafda geri qalmış, etnik cəhətdən qarışıq əhalisi olan qazlarla çirklənmiş şəhər; Ermənistandan gözlənilmədən gələn azərbaycanlı qaçqınlarının axını; şəhər rəhbərliyinin tam çaşqınlığı və hadisələrin içində olmaması; Moskvadakı rəhbərliyin susması; Qarabağda iki azərbaycanlının öldürülməsi barəsində yayılmış xəbərlər və bir sıra qəzəbli nümayişlər. Bütün bu amillər şəhərin ermənilər yaşayan bəzi məhəllələrində sovet qoşunlarının gecikmiş hərbi müdaxiləsi ilə sonu qoyulmuş amansız qırğına gətirib çıxardı. Rəsmi rəqəmlərə əsasən (demək olar ki, bu rəqəmlər həqiqətə uyğundur, çünki qurbanların siyahısı ilə uyğun gəlir) qırğın nəticəsində 26 erməni və 6 azərbaycanlı tələf olmuşdur. Sumqayıt Qarabağ üstündə mübahisəni münaqişəyə çevirdi, bu münaqişənin tam-miqyaslı müharibəyə çevrilməsinə isə tərəflərin yalnız lazımi silahlara malik olmaması mane olurdu.

## İdarəçilik böhranı

Sumqayıt hadisələri ətrafında müxtəlif qəsd əfsanələri yaransa da, bütün əldə olan faktlar göstərir ki, bu, sovet rəhbərliyinin qəsdən törətmədiyi və əvvəlcədən planlaşdırmadığı, və bununla belə üzərində nəzarəti saxlaya bilmədiyi kütləvi və qeyri-mütəşəkkil cəhət daşıyan zorakılığın sıçrayışı idi. Moskvanın bu hadisələrin əvvəlində oynadığı heç də şərəfli olmayan rolu o demək deyil ki, Qafqazda indiyə qədər hesab edildiyi kimi, münaqişə 1988-ci ildə mərkəzi hakimiyyətin oyunları nəticəsində başlamış, sadə ermənilərlə azərbaycanlılar isə yalnız kənar müşahidəçilər vəziyyətində qalmışlar. Politbüronun o vaxta aid bütün materialları ona işarə edir ki, Sovet İttifaqının mərkəzi aparatı hadisələrin belə arzuedilməz və gözlənilməz inkişaf etməsinə nəzarət etməkdə aciz idi. Ermənistan və



Azərbaycanda respublika kommunist partiya orqanları Qorbaçovun sərəncamlarına tabe olmayaraq, onun bütün planlarını alt-üst etdilər. 29 fevral 1988-ci il Sumqayıt hadisələrinə həsr olunmuş Politbüronun iclasında növbəti dəfə coşan Qorbaçov Bakı və Yerevanın partiya rəhbərlərini kəskin tənqidə tutdu: "Bizə məlumatlar lazımdır, lakin bu məlumatları bizdən gizlədirlər. Bu işdə hamının günahı var."

1988-ci ilin hadisələrini yenidən təhlil edərkən belə qənaətə gəlmək olar ki, gərginləşən münaqişəni yatırtmaq üçün Qorbaçovun yalnız iki çıxış yolu var idi. Onun xeyrinə demək lazımdır ki, o, birinci yola - kütləvi repressiyalara - əl atmadı. Ermənistan və Azərbaycanın bütün siyasi fəallarının həbs edilməsi müəyyən müddətə hər iki respublikanın əhalisinin gözünü qorxuda bilərdi, lakin Qorbaçov üçün bu addımın siyasi qiyməti çox baha olardı, kütləvi həbslər iğtişaşların qarşısını köklü surətdə ala bilməzdi, onları yalnız təxirə salardı. İkinci yol, hətta ən liberal sovet rəhbərindən söz gedirsə belə, fantastik görünür: konsensus əldə etmək niyyəti ilə bölgəyə səfərlər, danışıqlar, problemlərin araşdırılması ilə məşğul olan müstəqil komissiyanın yaradılması vasitəsilə demokratik ictimai debatların keçirilməsi. 1988-ci ildə Qafqazda bu cür təşəbbüslər tamamilə ağlasığmaz idi. Qeyd etmək lazımdır ki, ermənilər və azərbaycanlılar əvvəlki kimi Qorbaçovu Qarabağ münaqişəsində roluna görə tənqid edərkən onu qərəzsiz vasitəçi olmadığına görə deyil, öz hakimiyyətinin gücündən istifadə edib Dağlıq Qarabağı layiqli sahibinə, yəni onlara verməməkdə günahlandırırlar.

Faktlara əsaslanaraq demək olar ki, 1988-ci ildə Moskva artıq Ermənistan və Azərbaycan üzərində tam nəzarəti itirmişdi. 1988-ci ilin mayında Qorbaçov həm Bakıda, həm də Yerevanda kommunist partiyası rəhbərliyini dəyişdi, lakin elə həmin an da məlum oldu ki, yeni rəhbərlər Dağlıq Qarabağ məsələsinə dair daha da barışmaz mövqe tutublar. Hər iki respublika milli dövlətçiliyin qurulması prosesinə fəal qatılmışdır: yeni milli atributlar qəbul edilmiş, yeni təsisatlar yaradılmış, erməni və azərbaycanlı azlıqları isə kütləvi şəkildə deportasiya edilmişdir. Növbəti dönüş nöqtəsi 1990-cı ilin yanvarı oldu: Bakı küçələrini millətçi müxalifətə təslim edən sovet rəhbərləri sonradan vəziyyəti qat-qat pis vəziyyətə saldılar - Azərbaycan Xalq Cəbhəsini məhv etmək üçün şəhərə qoşun yeritdilər. Nəticədə dinc əhali arasında onlarla insan həlak oldu. Bu böhranın birinci qurbanları Bakıda qalmış ermənilər oldu: onlar şəhərdən təxliyə edildikdən əvvəl 90-dan çox erməni basqınlar nəticəsində öldürüldü, Bakı isə dözümlük nümunəsi olan çoxmilli şəhər şöhrətini itirdi.

*Şuşa məscidinin xarabalıqları.*
*Mənbə: Lorens Broers*

## Gərginləşmə və açıq müharibə

Sovet İttifaqının 1991-ci ildə parçalanmasından sonra Qarabağ münaqişəsi vətəndaş müharibəsindən dövlətlərarası münaqişəyə çevrildi. Keçmiş sovet respublikalarının 15-də öz keçmiş sovet sərhədləri çərçivəsində müstəqil dövlət olan kimi, Dağlıq Qarabağ beynəlxalq səviyyədə rəsmən Azərbaycanın tərkib hissəsi kimi tanındı. Bu məsələ o vaxtdan bəri münaqişənin özülündə dayanan məsələlərdən birinə çevrildi. Eyni zamanda sovet hərbi arsenalının münaqişə tərəflərinə verilməsi onların dağıdıcı potensialını artırdı.

Ərazinin coğrafi və demoqrafik reallıqları sadəcə fiziki şəkildə Dağlıq Qarabağın ətrafındakı azərbaycanlı şəhər və kəndlərdə yerləşən Azərbaycan tərəfini yaxınlıqdakı Ermənistandan ayrı yerləşən, lakin Dağlıq Qarabağın özünün üzərində daha yüksək nəzarətə malik olan erməni tərəfinə qarşı qoydu. Beləliklə, münaqişənin hərbi sonluğu azərbaycanlıların Dağlıq Qarabağı dövrəyə alıb öz şərtlərini yeritmək imkanından, və yaxud da ermənilərin bu hərbi mühasirəni yarıb Ermənistanla birləşmələrindən asılı idi.

Ermənilər üçün müharibənin ən kədərli anları Stepanakertin 1991-92-ci illərdə aramsız bombardmanı və Azərbaycan qoşunlarının 1992-ci ildə bütün cəbhə boyunca sürətli hücumu ilə bağlıdır. Azərbaycanlılar isə bu müharibənin ən qanlı divanını dəhşətlə xatırlayırlar: 1992-ci ilin fevralında Xocalıya hücum zamanı əsasən dinc əhalidən olan 485 nəfər azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilmişdi. Bundan əlavə, Qarabağın ətrafındakı yeddi rayonun 1992-94-cü illərdə ermənilər tərəfdən işğalı bu rayonlardan yarım milyon əhalinin sürgün edilməsinə gətirib çıxardı, nəticədə azərbaycanlılar son dərəcə gərgin humanitar böhranla üzləşdilər. Hərbi əməliyyatların Dağlıq Qarabağdan kənarda belə böyük əraziyə genişlənməsi (əgər Qarabağın özünü də bura daxil etsək, ermənilər hazırda Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 13,6%-nə nəzarət edirlər) bu həll edilməmiş qalan münaqişədə sağalmaz yara saxladı.

Bütün bunlar müharibənin acı gerçəklikləri idi. Lakin bunlara görə məsuliyyət xarici dünyanın üzərinə də düşür, çünki döyüşən tərəfləri razılığa gətirmək üçün lazımi qədər resurslar sərf edilməmişdir. Bu zorakılıqları, bəlkə də, "ölmək yoxsa öldürmək" vəziyyətində yaranmış hərbi məntiqlə izah etmək olar (amma Xocalı hadisələrində hər hansı strateji məntiqi görmək çətindir, çox güman ki, burada əsas rolu eybəcər hala düşən intiqam arzusu oynamışdır). Qələbə çalmaq üçün azərbaycanlılar Qarabağı iqtisadi və hərbi kəməndə salmalı idilər, lakin böyük itkilər versələr də, bu məqsədə nail ola bilmədilər. Ermənilər isə öz növbələrində Qarabağı zəif anklavdan güclü müdafiə olunan qəsrə çevirməli idilər. Axıdılmış qanın hesabına onlar öz məqsədlərinə nail oldular.

## Birlikdə təcrid olunanlar

1988-ci ildən bəri Qarabağ münaqişəsində təsirli və nüfuzlu kənar hakimlərin olmamağı bu münaqişənin daimi probleminə çevrilmişdir. Demək olar ki, bu münaqişə imperiyanın dağılan vaxtında tarixən mübahisəli olan ərazi üstündə siyasi ambisiyaların toqquşması kimi meydana çıxmışdır. Münaqişə tez bir zamanda adi təhlükəsizlik probleminə çevrildi, bu zaman imperiyanın mərkəzi zəif icmaları müdafiə etməyə imkansız idi, və beləliklə də hər iki tərəf yalnız öz qüvvələrinə arxalanmalı idilər.

Təbii ki, münaqişənin dinamikası tezliklə onun xarakterini dəyişməyə başladı. 1988-ci ilin fevral ayından sonra indiyə kimi problemə təsirini göstərməkdə davam edən iqtisadi amillər oyuna girdi. Silah alverçiləri, həris soyğunçular, dəllallar və mafiya - hamıda münaqişənin gərginləşməsinə və nizamsızlığına maraq oyandı. 20 min insanın həyatına son qoymuş müharibənin qanlı səhifələri, onun yaratdığı çirkin təbliğat və qisas arzusu ermənilərlə azərbaycanlıların nə vaxtlarsa bölüşdüyü ümumi mədəniyyətini tədricən yoxa çıxartdı və bunun əvəzində keçmişin hadisələrinə söykənən nifrət yaratdı.

Münaqişənin inkişafı və səbəblərinin qısa təhlilindən onun mümkün nizamlanması üçün hansı ibrət dərslərini götürmək olar? Birincisi, biz belə qənaətdəyik ki, münaqişənin kökündə heç də sosial-iqtisadi şərait durmayıb və ermənilərlə azərbaycanlılar arasındakı sosial-iqtisadi əlaqələr bu neçə illər ərzində dəymiş ziyana baxmayaraq bərpa edilə bilər. İkincisi, Dağlıq Qarabağın keçmiş siyasi quruluşunda qarşılıqlı ehtiyat və qorxu mühitinə səbəb olan dərin struktur nöqsanları var idi, və yalnız bugünkü böyük dövlətlər - Rusiya və Qərb ölkələri - tərəflərə mümkün təcavüzdən müdafiə hissi verə bilən yeni əhatəli təhlükəsizlik sistemini yaratmaq potensialına malikdirlər. Və nəhayət, əminliklə söyləmək olar ki, münaqişənin mahiyyəti Ermənistan və Azərbaycanın özlərini və əks tərəfi təsvir etmək üçün qurduqları dar siyasi leksikondadır. Münaqişənin buxovunu qırmaq və ümumi gələcək barəsində səmimi dialoqa başlamaq üçün hər iki tərəfdən çox böyük səylər tələb olunur. 1988-ci ildən bəri Dağlıq Qarabağ dərin uçurumun rəmzinə çevrilib. Buna görə də həm ermənilər, həm də azərbaycanlılar Qarabağı yeni tərzdə, yəni təkcə ərazi kimi yox, dirəkləri möhkəm, keçidi isə sərbəst olan bir körpü kimi təsəvvür etməlidirlər.